

# FİLMOQRAFİYA

## Çinar ömrü

2011-ci ildə Ramiz Həsənoğlunun rejissor yozumunda ərsəyə gələn filmin dünən Kinematoqrafçılar İttifaqının kino evində təqdimat mərasimi keçirildi.

Teatrşünas İlham Rəhimli "Çinar ömrü" adlı filmin yüksək məna yükünə malik olduğunu söyləmişdir: "Filmin "Çinar ömrü" adlanması 3 mənanı ifadə edir. Əvvələn, Rəsul Rza çinar ağacını çox sevirdi, ikincisi, çinar Göyçayın rəmzi kimi xatırlanır, üçüncüsü də, çinar 500, 1000 il ömür yaşayır. Rəsul Rza yaradıcılığı da çinar ömrü qədər uzun, köklü-budaqlı və çoxşaxəlidir".

Film Rəsul Rzanın "Çinar" şeiri ilə başlanır. Filmdə həmçinin, böyük şairin oğlu, yazıçı Anar, həyat yoldaşı, lirik şeirlər müəllifi Nigar xanım Rəfibəyliyə də geniş yer verilib. Böyük öndər Heydər Əliyevin Anar haqqında söylədiyi xoş fikirlər də filmdə öz əksini tapıb.

## Ana qaz

"Ana qaz" — 2005-ci ildə rejissor Vasif Məmmədzadə tərəfindən ekranlaşdırılmış qısametrajlı bədii televiziya filmidir. Film, Rəsul Rzanın eyniadlı şeirinin motivləri əsasında Eldar İsgəndərzadənin ssenarisi ilə çəkilmişdir. Azərbaycan televiziyası tərəfindən istehsal olunmuş bu 50 dəqiqəlik dram, bir ananın faciəsinə həsr olunmuşdur.

Film, ana qazın balalarını qorumaq üçün göstərdiyi səyləri və qarşılaşdığı çətinlikləri təsvir edir. Balalarını bir-bir itirən ana qaz, bütün gücünü toplayaraq övladlarını qorumağa çalışır. Lakin güclülər qarşısında aciz qalır və nəhayət, tək qalıb balalarının intiqamını almağa çalışır. Əsər, alleqorik dram janrında olub, insanlara öz taleyi, gələcəyi və səadəti uğrunda mübarizə aparmağın vacibliyini çatdırır.

Rejissor: Vasif Məmmədzadə

Ssenari müəllifi: Eldar İsgəndərzadə

Əsərin müəllifi: Rəsul Rza

Operator: Mahir Cahangirov

İstehsalçı: Azərbaycan televiziyası ("Azərbaycantelefilm")

"Ana qaz" filmi, Rəsul Rzanın poetik irsinin ekranlaşdırılması ilə ədəbiyyat və kino arasında körpü yaradır. Film, ailə dəyərləri, analıq fədakarlığı və cəmiyyətin sosial təbəqələri arasındakı münasibətləri alleqorik şəkildə əks etdirir.

## Ağ rəngin simfoniyası

Ağ rəngin simfoniyası qısametrajlı sənədli televiziya filmi rejissor İqbal Məmmədəliyev tərəfindən 2003-cü ildə çəkilmişdir. Film Lider Televiziyasında istehsal edilmişdir. Bütün çirkabları üzə çıxaracaq qədər təmiz, saf bir rəng olan ağ rəng yaradılışla bağlıdır. Ağ rəng təmizlik, səmimiyyət, bakirəlik və azadlıq rəmzidir. Elmi-kütləvi filmdə bu rəngin anlamları açıqlanır.

***Filmin üzərində işləyənlər***

Ssenari müəllifi: Günel Mehri

Rejissor: İqbal Məmmədəliyev

Operator: Rəşad Nuriyev, Rüfət Məmmədoğlu

Prodüser: Elman Dadaşoğlu

## Göy rəngin melodiyası

"Göy rəngin melodiyası" — 2003-cü ildə istehsal edilmiş sənədli filmdir. Film, görkəmli Azərbaycan şairi və ictimai xadimi Rəsul Rzanın həyat və yaradıcılığına həsr olunmuşdur.

Film, Rəsul Rza'nın zəngin ədəbi irsini və onun Azərbaycan ədəbiyyatına verdiyi töhfələri əks etdirir. Şairin poeziyasında rənglərə və xüsusilə də göy rəngə verdiyi simvolik mənalar, onun yaradıcılığının əsas mövzularından biridir. Filmdə, Rəsul Rza'nın şeirlərindəki rəng təsvirləri və onların poetik anlamları ön plana çıxarılır.

Rəsul Rzanın poeziyasında rənglər, xüsusilə də göy rəng, dərin simvolik mənalar daşıyır. Onun "Dəniz nə rəngdədir…

"Göy rəngin melodiyası" filmi, Rəsul Rzanın poetik dünyasını və onun rənglərə verdiyi mənaları tamaşaçılara çatdırmaq məqsədi daşıyır. Film, şairin yaradıcılığının dərinliklərinə enərək, onun poeziyasında rənglərin və xüsusilə də göy rəngin yerini və əhəmiyyətini vurğulayır.

## Qız qalası

1984-cü ildə çəkilmiş Burada saf məhəbbət və sədaqət tərənnüm olunur.

1985-ci ildə Kiyevdə XI Ümumittifaq televiziya filmləri festivalında bu film ən yaxşı rejissor işinə görə Diplomla təltif olunmuşdur.

Kukla filmidir.

Film respublikanın Xalq şairi Rəsul Rzanın poeması əsasında çəkilmişdir.

***Film üzərində işləyənlər***

Əsərin müəllifi: Rəsul Rza

Rejissor: Vaqif Behbudov

Ssenari müəllifi: Vaqif Behbudov

Quruluşçu rəssam: Vaqif Məmmədov

Operator: Vaqif Behbudov

Bəstəkar: Rəşid Nəsiboğlu

Səs rejissoru: Firudin Hüseynov

**Salam, Zeynəb!**

1982-ci ildə çəkilmiş film müğənni Zeynəb Xanlarovanın yaradıcılığını əhatə edən film-konsertdir.

***Film üzərində işləyənlər***

Müəllif: Arif Qazıyev

Rejissor: Arif Qazıyev

Operator: Rafiq Cavadov

Rəssam: Məmməd Şirzadov

Səs rejissoru: Ramiz Bağırov

Montaj: Səyyarə Namazova, Lalə Qazıyeva

Rejissor assistenti: T.Aslanov

Operator assistenti: F.Bağırzadə

Musiqilərindən istifadə edilən bəstəkarlar: Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Ramiz Mirişli, Emin Sabitoğlu

Filmin direktoru: Mübariz Qasımov

İfasından istifadə edilən müğənni: Zeynəb Xanlarova (titrlərdə yoxdur)

***Filmdə iştirak edənlər***

Zeynəb (titrlərdə yoxdur)

Emin Sabitoğlu (titrlərdə yoxdur)

Mikayıl Abdullayev(SSRİ Rəssamlar Akademiyasının həqiqi üzvü, C. Nehru adına Beynəlxalq Mükafat laureatı)

Anar (Azərbaycan SSR Dövlət Mükafatı laureatı, respublikanın əməkdar incəsənət xadimi, yazıçı)

Toğrul Nərimanbəyov (SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan SSR-in xalq rəssamı)

Süleyman Rüstəm (titrlərdə yoxdur)

Heydər Əliyev (titrlərdə yoxdur)

Rəsul Rza (titrlərdə yoxdur)

Amaliya Pənahova (titrlərdə yoxdur)

Əliağa Ağayev (titrlərdə yoxdur)

Hacıbaba Bağırov (titrlərdə yoxdur)

## Üzeyir ömrü

Üzeyir ömrü və ya Uzun ömrün akkordları — Xalq yazıçısı, müəllif və rejissor Anarın quruluşunda eyniadlı filmdir. Film 1981-ci ildə çəkilmişdir.

Film bəstəkar Üzeyir Hacıbəyovun uşaqlıq və gənclik illərini, onun musiqi aləmində ilk müvəffəqiyyətlər qazandığı, istedadlı yazıçı, jurnalist, ictimai xadim kimi fəaliyyətə başladığı bir dövrü əhatə edir. Sənətkar, mübariz ziyalı, gözəl insan. Tamaşaçılar bu nəcib keyfiyyətlərin hamısını Üzeyir Hacıbəyovda görür və dahi bəstəkarın həyat və yaradıcılıq yolu, onun maarifçilik fəaliyyəti, yazıçılıq məharəti ilə tanış olurlar. Filmdə bəstəkarın ayrı-ayrı əsərləri, o cümlədən "Leyli və Məcnun"u, "Arşın Mal Alan"ı və "Koroğlu"sunun səhnə taleyi də öz əksini tapmışdır.

Filmdə SSRİ Dövlət Filmfondundan və Azərbaycan SSR Mərkəzi Dövlət kinofotosənədlər arxivində saxlanılan bədii və sənədli filmlərdən alınmış fraqmentlərdən istifadə olunmuşdur.

Filmdə Üzeyir Hacıbəyovun əsərləri və Azərbaycan xalq musiqisi, habelə Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının əsərlərindən parçalar səslənir.

Filmdə "Küləklər şəhəri", "Arşın mal alan", "O olmasın, bu olsun", "Doğma xalqıma", "Bəstəkar Müslüm Maqomayev" filmlərindəki kadrlardan istifadə olunmuşdur.

Film SSRİ Dövlət Televiziya və Radio Komitəsinin sifarişilə çəkilmişdir.

Film iki seriyalıdır.

## Eldən soruş

"Eldən soruş" — 1980-ci ildə çəkilmiş qısametrajlı bioqrafik sənədli filmdir. Film, görkəmli Azərbaycan şairi və ictimai xadimi *Rəsul Rza*nın anadan olmasının 70 illiyinə həsr olunmuşdur.

Rejissor: Ənvər Əbluc

Ssenari müəllifi: Toğrul Cuvarlı

Operator: Fəraməz Məmmədov

Bəstəkar: Mobil Babayev

Səs operatoru: Şamil Kərimov

İstehsalçı: "Azərbaycanfilm" Kinostudiyası

İlk baxış tarixi: 1980

Format: 2 hissə, 548 metr, 35 mm, rəngli

Film, Rəsul Rza'nın həyat və yaradıcılığına, ictimai fəaliyyətinə həsr olunmuşdur. Sənətkarın poeziyasının əsas mövzuları, ədəbi irsi və ictimai mövqeyi kinolentdə əks etdirilir. Film, Rəsul Rza'nın ədəbi və ictimai fəaliyyətini geniş auditoriyaya tanıtmaq məqsədi daşıyır.

***Filmdə iştirak edənlər***

Rəsul Rza

Heydər Əliyev

Süleyman Rüstəm

## Dostluq himni

"Dostluq himni" — 1974-cü ildə çəkilmiş qısametrajlı musiqili sənədli televiziya filmidir. Film, SSRİ xalqları arasında dostluq və birlik ideyasını təbliğ edir.

Rejissor: Rüfət Şabanov

Ssenari müəllifləri: B. Zabolotski, B. Raxkin

Operator: Eduard Bədəlov

Səs operatoru: İsgəndər Kərimov

İstehsalçı: "Azərbaycantelefilm"

İlk baxış tarixi: 1974-cü il

Format: 1 hissə, 274 metr, 35 mm, rəngli

Filmdə şair Rəsul Rzanın sözlərinə bəstəkar Qara Qarayevin bəstələdiyi musiqi səslənir. Azərbaycan, Bakı, Moskva, Kiyev, Bakının küçələri, metro, Xəzər dənizi, balıqçılar-bütün bunlar fotoşəkillər vasitəsilə ekranda göstərilir. Ümumittifaq radio və televiziyasının xor və böyük simfonik orkestrinin müşayiəti ilə SSRİ xalq artisti Müslüm Maqomayev dostluq himnini ifa edir.

***Film üzərində işləyənlər***

Rejissor: Rüfət Şabanov

Ssenari müəllifi: B.Zabolotski, B.Raxkin

Operator: Eduard Bədəlov

Səs operatoru: İsgəndər Kərimov

## Azərbaycan elmi

Azərbaycan elmi tammetrajlı sənədli filmi rejissor Cavanşir Məmmədov tərəfindən 1969-cu ildə çəkilmişdir. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Kinolentdə respublikamızda elmin inkişafından, alimlərimizin beynəlxalq əlaqələrindən, elmin müxtəlif sahələrindəki nailiyyətlərindən danışılır.

Kinolentdə respublikamızda elmin inkişafından, alimlərimizin beynəlxalq əlaqələrindən, elmin müxtəlif sahələrindəki nailiyyətlərindən danışılır.

Ssenari müəllifi: Nurəddin Babayev

Rejissor: Cavanşir Məmmədov

Operator: Əlihüseyn Hüseynov

Rəssam: Aleksandr Petuxov

Bəstəkar: Tofiq Quliyev

## Toğrul Nərimanbəyov

1966-cı ildə çəkilmiş film gənc rəssam Toğrul Nərimanbəyovun yaradıcılığına həsr olunmuşdur. Bununla yanaşı biz onu həyatının müxtəlif anlarında-böyük rəngkar Səttar Bəhlulzadə ilə söhbət edərkən, İçəri şəhəri gəzərkən görürük, onun görkəmli sənətkarlara — Bülbülə, Nazim Hikmətə, Rəsul Rzaya, Bəxtiyar Vahabzadəyə və Səttar Bəhlulzadəyə həsr etdiyi əsərləri ilə tanış oluruq.

***Film üzərində işləyənlər***

Rejissor: Teymur Bəkirzadə

Ssenari müəllifi: Teymur Bəkirzadə

Operator: Eduard Bədəlov

Səs operatoru: İ.Kərimov

## Qızıl gül olmayaydı...

Qızıl gül olmayaydı... filmi 1965-ci ildə çəkilmişdir.

Biri vardı, biri yoxdu... Yox, bu nağıl deyil, əsil həqiqətdir. Acı bir həqiqət! Gözəl xəyallar, puça çıxmış ümidlər, acı peşimançılıq və nakam məhəbbət haqqında bir həqiqət... Bu, Odlar yurdunun oğlu Mikayıl Müşfiqdir. Azərbaycanın xalq şairi Rəsul Rza gənclik dostu, vaxtsız həlak olmuş şair haqqında öz söhbətinə belə başlayır.

Gecə qapım döyüldü

Görəsən kimdir gələn?

- Kimsən?

- Mən

Açdım qapını

Baxdım

Baxdım...

Müşfiq cəmi 29 il ömür sürsə də, Azərbaycan ədəbiyyatında silinməz iz buraxmışdır. O öz yaradıcılığında lirika ilə pafosu incə məhəbbətlə vəhdət şəklində tərənnüm edən qüdrətli bir şair, Şərq şerinin zirvələrinə qalxmış bir sənətkar idi. Müşfiqin xatirəsi əbədi yaşayacaq. Çünki onun şerləri əbədidir.

Müəlliflər filmdə bu barədə şairin həyat və yaradıcılığı, faciəli ölümü haqqında söhbət açırlar.

Film 1969-cu ildə İrəvanda keçirilən "Prometey-69" zona festivalında mövzunun nəcibliyi və ən yaxşı ssenariyə görə iki diplom almışdır.

Film Rəsul Rzanın eyniadlı poeması əsasında çəkilmişdir.

***Film üzərində işləyənlər***

Rejissor: Nazim Abbas

Əsərin müəllifi: Rəsul Rza

Ssenari müəllifi: Rəsul Rza

Operator: Nəriman Şıxəliyev

Bəstəkar: Ruhəngiz Qasımova

Səs rejissoru: Ruhəngiz Qasımova

## Kölgələr sürünür

Kölgələr sürünür - 1958-ci ildə çəkilmiş Azərbaycan filmidir.

Filmdə elmdə həqiqətlərin üzə çıxarılması naminə aparılan mübarizədən danışılır, müxtəlif yollarla alimlik adı almış, cəmiyyətimizə yad olan adamlar ifşa edilir.

Filmin mövzusu arxeoloqların həyatından götürülmüşdür.

***Film üzərində işləyənlər***

Ssenari müəllifi : Qılman Musayev

Quruluşçu rejissor : İsmayıl Əfəndiyev, Şua Şeyxov

Quruluşçu operator : Əsgər İsmayılov

Quruluşçu rəssam : Məmməd Hüseynov

Bəstəkar : Rauf Hacıyev

Mahnıların mətni : Rəsul Rza

Rejissor : Yusif Yulduz

Redaktor : Əhmədağa Qurbanov

Məsləhətçi : H. Sultanov (geoloji-mineraloji elmlər doktoru), T. Bünyadov (tarix elmləri namizədi)

Çalır : Üzeyir Hacıbəyov Adına Azərbaycan Dövlət Simfonik Orkestri

Dirijor : Niyazi

Filmin direktoru : Əli Məmmədov

Mahnı İfa edən : Şövkət Ələkbərova, Mirzə Babayev (titrlərdə yoxdur)

Rejissor assistenti : Əlisəttar Məlikov

## Bəxtiyar

"Bəxtiyar" — 1955-ci ildə çəkilmiş məşhur Azərbaycan musiqili bədii filmidir. Rejissor Lətif Səfərov, ssenari müəllifləri Süleyman Rəhimov və Rəsul Rza olmuşdur. Film Azərbaycanın görkəmli müğənnisi və aktyoru Rəşid Behbudovun ifasında Bəxtiyar obrazı ilə geniş tamaşaçı auditoriyasının rəğbətini qazanıb.

Film gözəl və bənzərsiz səsə malik gənc neftçi Bəxtiyar Muradovun (Rəşid Behbudov) taleyindən bəhs edir. Hələ uşaq ikən, gənc Bəxtiyar öz məlahətli səsilə konservatoriyanın professoru Rəcəbovun (Məmmədrza Şeyxzamanov) diqqətini cəlb edir. Lakin Bəxtiyar xüsusi musiqi təhsili almaq haqda ona verilən məsləhətlərə məhəl qoymur və valideynlərinin yolu ilə gedib neftçi olur. İş elə gətirir ki, o, hər şeydə mənfəət axtaran fırıldaqçı, əsl incəsənətdən uzaq olan klub müdiri Ağabala (Ağasadıq Gəraybəyli) ilə rastlaşır. Ağabala Bəxtiyarı estrada müğənnisi etmək məqsədilə onun çıxışlarını təşkil edir, bu yolla çoxlu pul qazanır. Nəticədə Bəxtiyarın səsi tutulur. Nəhayət Bəxtiyar müğənniliyin böyük sənət olduğunu başa düşüb, bu işlə ciddi məşğul olmağa başlayır. Dostları Bəxtiyarın Saşa ilə barışmasına kömək edirlər. Film bir çox sevilən mahnılarla yadda qalıb. Tofiq Quliyevin bəstələri, Rəşid Behbudovun vokalı Azərbaycan musiqi mədəniyyətinin klassik nümunələrindəndir. "Gəl ey səhər", "Sənə də qalmaz", "Bəxtiyar" kimi mahnılar bu filmlə əbədi məşhurlaşıb.

Film Azərbaycan kinematoqrafiyasında musiqili filmlər janrının öncüllərindəndir.

Rəsul Rzanın ssenari müəllifi kimi iştirakı onun ədəbi irsinin kinoda təzahürünün göstəricisidir.

SSRİ dövründə bir çox mükafatlar qazanmış və respublikadan kənarda da göstərilmişdir.

## Kəndlilər

Kəndlilər — rejissor Səməd Mərdanovun filmidir. 1939-cu ildə çəkilmişdir. Bu film Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında dövlət varidatı elan edilən filmlərin siyahısına daxil edilmişdir.

Müsavat hökumətinin süqutu ərəfəsində kəndlilər arasında bolşevik təbliğatı bəylərə qarşı üsyanla nəticələnir. Film Azərbaycanda gedən inqilabi hərəkatdan, XI Qızıl Ordunun fəal iştirakı ilə bolşeviklərin hakimiyyəti öz əllərinə keçirmələrindən danışır.

Film rejissor Səməd Mərdanovun bədii kinoda ilk və son müstəqil işidir.

Film aktyor İsmayıl Osmanlının kinoda ilk işidir.

Film aktyor Məmmədrza Şeyxzamanovun kinoda ilk işidir.

Filmin ən məşhur səhnələrindən biri Möhsün Sənaninin iştirak etdiyi sərxoşlar səhnəsidir. Bu səhnənin inandırıcı alınmasının səbəbi odur ki, aktyor rejissor Səməd Mərdanovun təkidi ilə araq içməli olur və həqiqətən sərxoş olur. Aktyoru sərxoş edən rejissor bu səhnəni bir dubla çəkir. Həmçinin bu kadrlar kinostudiyanın pavilyonunda çəkilmişdir.

Film ekranlara çıxmamış rejissor vəfat etmişdi.

***Filmin üzərində işləyənlər***

Ssenari müəllifi: Georgi Mdivani

Quruluşçu rejissor: Səməd Mərdanov (debüt)

Quruluşçu operator: Dmitri Feldman

Operator: Əsgər İsmayılov, Muxtar Dadaşov

Bəstəkar: Niyazi

Filmin direktoru: Teymur Hüseynov

Mahnıların mətni: Rəsul Rza

## Ordenli Azərbaycan

1938-ci ildə çəkilmiş film Oktyabr inqilabının 20 illiyinə ithaf edilmiş yubiley filmidir.

Film tematik icmal prinsipi əsasında qurulmuşdur. Ekranda qarlı dağlar, şəlalələr, Göy-gölün mənzərəsi və onun ətrafı, üzüm və meyvə bağları, balıq ovu və s. görünür. Sonra kadrlar bizi keçmişə qaytarır. Müəlliflər inqilabdan əvvəlki xronikanı-neftçilərin ağır əməyini, kəndlilərin toxum səpmələrini və s. tarixi sənədləri nümayiş etdirirlər. Serqo Orconikidze Azərbaycanın sosializm quruculuğu işindəki uğurlarından danışır. Burada xalq təsərrüfatının bərpası, qəhrəman neftçilər, Bakı öz əksini tapmışdır.

Filmdə böyük satirik, şair Mirzə Ələkbər Sabirin şerləri də səslənir. Film Moskvada Azərbaycan incəsənəti ongünlüyünün keçirilməsi ilə əlaqədar çəkilmişdir.

Film Qara Qarayevin kinoda ilk işidir.

Film Əbülhəsənin kinoda ilk işidir.

***Film üzərində işləyənlər***

Baş rejissor: Rza Təhmasib

Rejissorlar: Qriqori Braginski, A.Konstantinov, Şua Şeyxov

Ssenari müəllifi: Rəsul Rza, Əbülhəsən

Operator: Seyfulla Bədəlov, Muxtar Dadaşov, Camal İsmixanov, Leon Aristakesov, Fyodor Novitski

Bəstəkar: Niyazi, Qara Qarayev, Cövdət Hacıyev

Səs operatoru: İlya Ozerski

İkinci rejissor: Qəmər Salamzadə, Niyazi Bədəlov

Rejissor köməkçisi: Lətif Səfərov

**Dəcəl dəstə**

"Dəcəl dəstə" — 1937-ci ildə çəkilmiş, Azərbaycanın ilk uşaq filmlərindən biri hesab olunur. Film, Bakının beynəlmiləl orta məktəblərindən birində baş verən hadisələri təsvir edir. Əsas obrazlar — Heydər, Olya və Yusif — dərs və oyunlar arasında macəralar yaşayırlar. Heydərin Hindistan cəngəlliklərində ovçu olmaq arzusu, Yusifin kimyəvi təcrübələri və sinif yoldaşları ilə birgə təşkil etdikləri oyunlar filmin süjet xəttini təşkil edir. Bu hadisələr, uşaqların dostluq, əməksevərlik və kollektivçilik kimi dəyərləri mənimsəməsinə yönəlib.

Rejissorlar: Qəmər Salamzadə və Aleksandr Popov

Ssenari müəllifi: Yuri Fidler

Bəstəkar: M. Baxçisaraytsev

Quruluşçu rəssam: Viktor Aden

Mahnıların mətni: Rəsul Rza və Yuri Fidler

İstehsalçı: "Azərfilm" kinostudiyası

İlk baxış tarixi: 9 noyabr 1937

Müddət: 59 dəqiqə

Dil: Rus dili

Rəng: Ağ-qara

Film, sovet ideologiyasının təsiri altında çəkilmişdir və uşaqlarda yoldaşlıq, dostluq, kollektivçilik hisslərinin formalaşdırılmasına yönəlib. "Dəcəl dəstə", həmçinin, Azərbaycanın ilk qadın kinorejissoru Qəmər Salamzadənin rejissorluq etdiyi ilk filmlərdən biridir.

Film, çəkildiyi ildən sonra uzun müddət it-bata düşmüş və yalnız 2008-ci ildə Rusiya Dövlət Film Fondundan tapılaraq Azərbaycana gətirilmişdir.